**Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi**

**Permanent Mission of the Republic of Azerbaijan to the United Nations**

633 Third Avenue, Suite 3210, New York, NY, 10017
Tel: (212) 371-2559, 371-2832 (ext. 101); Fax: (212) 371-2784, (646) 738-6143

## Press-reliz

## Azərbaycan Respublikası və Baham Adaları Birliyi arasında diplomatik əlaqələrin yaradılması

2017-ci ilin 2 may tarixində Nyu York şəhərində Azərbaycan Respublikası və Baham Adaları Birliyi arasında diplomatik əlaqələrin yaradılması haqqında Birgə Kommünike imzalanmışdır.

Sənədə əsasən, diplomatik əlaqələrin yaradılması iki ölkə və xalq arasında qarşılıqlı anlaşmanı təşviq etmək və əməkdaşlığı gücləndirmək niyyətindən irəli gəlir və BMT Nizamnaməsi və beynəlxalq hüquqa, xüsusilə də beynəlxalq sülh və təhlükəsizlik, dövlətlərin suveren bərabərliyi, milli suverenliyə hörmət, müstəqillik, ərazi bütövlüyü, dövlətlərin daxili işlərinə qarışmama və beynəlxalq müqavilələrə hörmət prinsiplərinə əsaslanır.

Birgə Kommünikeni iki ölkənin BMT yanında daimi nümayəndələri - Yaşar Əliyev və Elliston Rahming imzalamışlar.